

BÜLLETEN

# Xüsusi hərbi əməliyyat zamanı Rusiya Federasiyasının Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovanın uşaqların müdafiəsi üzrə fəaliyyəti

Buraxılış № 2 / 13 oktyabr 2023-cü il

## Hörmətli oxucular!

*Qarşınızda Xüsusi hərbi əməliyyat (XHƏ) zamanı Rusiya Federasiyasının Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovanın uşaqların müdafiəsi üzrə fəaliyyəti haqqında bülletenin ikinci buraxılışıdır. Birinci buraxılış 4 aprel 2023-cü ildə təqdim edilmişdir.*

*XHƏ-nın əvvəlindən bizim institut Donbass uşaqlarının xilası və dəstəyinə operativ surətdə qoşulmuşdur. Bu müddət ərzində mənim ötən ilin 30 sentyabrdan etibarən Rusiya Federasiyasının tərkibinə daxil olmuş Donetsk və Luqansk Xalq Respublikalarına, Zaporojye və Xerson vilayətlərinə doqquz işçi səfərim baş tutmuşdur.*

*Əgər ilk aylarda "burada və indi" rejimində uşaqlara təcili yarımın göstərilməsi prioritet təşkil edirdisə, artıq hazırda hakimiyyət orqanları ilə birgə biz ölkəmizin yeni regionlarında uşaqların müdafiəsi üzrə tam və mükəmməl sistemin yaradılması üzərində işləyir, o cümlədən, öz strateji proqramlarımızı həyata keçiririk.*

*Bundan əlavə, son alqoritm üzrə Ukrayna, Rusiya ərazisində uşaqların yaxınlarına qovuşması ilə məşğul olmaqda davam edir və bütün müraciətlər üzrə bütün xırdalıqlara varmaq şərtilə iş aparmaqla, hər qovuşma faktına sevinirik.*

*Bülletenin ikinci buraxılışında hərbi əməliyyatların təsiri daisərinə düşmüş və yetkinlik yaşına çatmamış şəxslərin hüquq və maraqlarının reallaşdırılması üzrə fəaliyyətimiz haqqında informasiyanın tam və dolğun olması üçün məlumatları detallaşdırmışıq.*

Mariya Lvova-Belova,
Rusiya Federasiyasının Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil

### Uşaqların hüquqları üzrə Müvəkkillər institutu haqqında

Rusiya Federasiyasının Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil vəzifəsi Ruiya Federasiyası Prezidentinin 1 sentyabr 2009-cu il tarixli 986 saylı Fərmanı ilə təsis edilmişdir.

İnstitutun inkişafında mühüm addım "Rusiya Federasiyasında uşaqların hüquqları üzrə Müvəkkillər haqqında" 27 dekabr 2008-ci il tarixli 501-ФЗ saylı Federal qanunun qəbul edilməsi olmuşdur. Bu qanun həmçinin federal və regional müvəkkillərin hüquqi statusunu təyin etmiş oldu.

Müvəkkilin fəaliyyəti uşaqların hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması zəmanətinin, dövlət orqanları, yerli idarəetmə orqanları, vəzifəli şəxslər tərəfindən uşaqların hüquq və qanuni maraqlarının həyata keçirilməsi və riayət olunmasının təmin edilməsinə yönəlmişdir.

### Müvəkkil:

▶ uşaqların pozulmuş hüquq və qanuni maraqlarının bərpa edilməsinə;

▶ uşaqların hüquq və qanuni maraqlarının müdafiəsi ilə bağlı Rusiya Federasiyası qanunvericiliyinin təkmilləşdirilməsinə;

▶ uşaqların hüquq və qanuni maraqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın inkişafına;

▶uşaqların hüquq və qanuni maraqlarının müdafiəsinin forma və metodlarının təkmilləşdirilməsinə kömək edir.

Federal müvəkkil Rusiya Federasiyasının subyektlərində müvəkkillərin fəaliyyətinin əlaqələndiricisi qismində çıxış edir.

Hazırda regional səviyyədə uşaqların hüquqları üzrə müvəkkil vəzifəsi 86 regionda, o cümlədən

də Luqansk Xalq Respublikasında (LXR) təsis edilmişdir.

Donetsk Xalq Respublikasında və Zaporojye vilayətində uşaqların hüquqlarının müdafiəsi məsələləri region başçılarının profillli müşavirələrin üzərinə qoyulmuşdu. Uşaqların hüquqları üzrə müvəkkil haqqında qanunlar Donetsk və Luqansk xalq respublikalarında qəbul edilmişdir. Müvafiq vəzifənin Xerson və Zaporojye vilayətlərində də təsis edilməsi planlaşdırılır.

## XHƏ çərçivəsində RF Prezidenti yanında Müvəkkilin vəzifələri

▶ Hərbi əməliyyatlar zonasında olan uşaqların təhlükəsizliyinin təmin edilməsinə yardımçı olmaq.

▶ Uşaqların təhsil, tibbi yardım, sosial təminat, ailə mühiti və bu kimi digər hüquqlarının reallaşdırılmasına kömək etmək.

▶ XHƏ dövründə bu və ya digər səbəblər üzündən öz valideynləri və digər yaxınlarından uzaq düşmüş uşaqların onlara qovuşmasına yardımçı olmaq.

▶ Humanitar yardımın göstərilməsi.

▶ Hərbi əməliyyatlar təsir etmiş uşaqların psixoloji müşayiəti və reabilitasiyasına kömək etmək.

▶ DXR, LXR, Zaporojye və Xerson vilayətlərin icra hakimiyyəti orqanlarına uşaqlığın müdafiəsi sisteminin qurulmasında yardımçı olmaq.

▶ XHƏ zamanı uşaqların müdafiəsi məsələləri ilə bağlı beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyət göstərmək.

## XHƏ çərçivəsində RF Prezidenti yanında Müvəkkilin iş prinsipləri

▶ Uşaq və ailə maraqları - ən başlıca prioitetdir.

▶ Operativlik: hərbi əməliyyatlar şəraitində uşaqlara yardımın göstərilməsi sürətlə yerinə yetirilməlidir.

▶ Ailə mühiti – uşağın harmonik inkişafı üçün açar şərtdir.

▶ Şəffaflıq: müvəkkilin bütün işi KİV-lərdə və sosial şəbəkələrdə işıqlandırılmalıdır.

## Müvəqqəti yerləşmə məntəqələrində uşaqların hüquqlarının müdafiəsi

LRegionlarda uşaqların hüquqları üzrə müvəkkillər müvəqqəti yerləşmə məntəqələrində (MYM) yaşayan ailələrə və uşaqlara yardımların göstərilməsinə cəlb olunub.

RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil yeni regionlarda yaşayan uşaqlara və ailələrə yardımların göstərilməsinin aktual məsələləri ilə əlaqədar sistemli qərarların işlənib hazırlanması üçün müntəzəm şəkildə müşavirələr keçirir. Daha ətraflı – "Xüsusi hərbi əməliyyat zamanı Rusiya Federasiyasının Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin uşaqların müdafiəsi üzrə fəaliyyəti" bülletenin birinci buraxılışında.

Bu gün uşaqların hüquqları üzrə müvəkkillər institutu müvəqqəti yerləşmə məntəqələrində yaşayan vətəndaşların müraciətləri üzrə də zərurət yarandığı tərqidrdə tibbi, psixoloji, hüquqi, maddi, təhsil yardımı göstərir.

Belə ki, 2023-cü ilin iyun ayında Mariya Lvova-Belova "Bilavasitə uşaqlara" aksiyası çərçivəsində Ukraynadan açılan atəşlər səbəbindən Belqorod şəhərinin müvəqqəti yerləşmə məntəqələrindən birində öz ailələri ilə birgə məskunlşmış Şebekinski şəhər dairəsindən olan 135 uşağa ümumi çəkisi 700 kq olan humanitar yardım göndərmişdir. Yumanitar yükə yataq dəstləri, geyim, uşaq qidaları, gigiyena vasitələri, inkişafetdirici oyunaclaq daxil idi.

## DXR, LXR və Xerson vilayətində yerləşən sosial müəssisələrin evakuasiya olunmuş yetirmələrinin hüquqlarının müdafiəsi

2022-ci ilin fevral ayında DXR və LXR başçıları RF hakimiyyətinə mülki vətəndaşları Rusiya ərazisində qəbul etmək xahişi ilə müraciət etmişlər.

2022-ci ilin fevralında RF-nın ərazisinə gəlmiş şəxslər arasında yetim və valideynlərin himayəsindən məhrum olmuş uşaqlar üçün respublika internat müəssisələrinin yetirmələri də var idi (cəmi 2 min nəfərə yaxın), onların qanuni nümayəndələri qeyd edilmiş müəssisələrin direktorları və əməkdaşları idi.
DXR-dən gəlmiş uşaqlar bu respublikanın qəyyumluq və himayədarlıq sferasında fəaliyyət göstərən müvəkkil orqanlarının müraciətinə əsasən sonradan Rusiya vətəndaşlarının ailələrinə himayədarlığa verilmiş yaxud sərhədyanı müvəqqəti yerləşmə məntəqələrindən Rusiyanın digər regionlarında fəaliyyət göstərən uşaq müəssisələrinə köçürülmüşlər. Bu uşaqların hər birinin taleyi haqqında məlumat var. Onların hüquqlarının müdafiəsi – regionların müvəkkil orqanlarının nəzarəti altındadır.

LXR-dan gəlmiş uşaqlar tam heyətlə öz müəssisələrinə qayıtmışlar. Bundan sonra onların bir hissəsi Respublikanın qəyyumluq və himayədarlıq üzrə müvəkkil orqanlarının müraciətinə əsasən rusiyalıların ailələrinə himayədarlığa verilmişdir.

Ümumilikdə Rusiya vətəndaşlarının ailələrinin himayədarlığına DXR və LXR-dan olan 380 uşaq verilmişdir. Bu, 2022-ci ilin aprel-oktyabr aylarında baş tutmuşdur. Daha ətraflı – "Valideynlərin himayəsindən məhrum olmuş uşaqların Rusiya vətəndaşlarının ailələrinə himayədarlığa verilməsi" bölümündə. 2022-ci ilin noyabr ayında cəbhə xəttinin bilavasitə yaxınlığına Xerson vilayətinin Aleşkenski uşaq internat-evi olmuşdur. Müvəkkilin köməyi ilə bu müəssisənin ağər patalogiyalara malik 52 uşağı təhlükəsiz əraziyə - Krım Respublikasına müvəqqəti köçürülmüşdür. Orada olduqları zaman uşaqlar icra hakimiyyətinin regional orqanları, qeyri-kommersiya təşkilatları, xeyriyyəçilər tərəfindən bütün zəruri vasitələrlə təmin edilmişlər.

*2023-cü ilin avqust ayının sonlarında RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin köməyi sayəsində Aleşkenski uşaq internat-evindən bir oğlanı Ukraynadan olan nənəsinə təhvil vermək mümkün olmuşdur. Qadın xeyli müddət doğma nəvəsini müəssisədən götürə bilmirdi – sənədlərə görə qohumluq əlaqəsini təyin etmək mümkün deyildi. Uşağın valideynləri hələ XHƏ başlamazdan əvvəl onu internat evində qoymuşdular. Nəvə və nənəsinin bir-birinə qovuşması üçün müvəkkil aparatı Rusiyanın Səhiyyə Nazirliyinin məhkəmə-tibbi ekspertizası mərkəzinin köməyi ilə DNT ekspertizasını təşkil etmişdi. Qohumluq əlaqəsi təsdiq edildikdən sonra, Mariya Lvova-Belovanın iştirakı ilə uşaq nənəsinə təhvil verildi.*

Aleşkenski uşaq internat-evinin yetirmələri artıq doğma vilayətinə, Skadovsk şəhərində yerləşən yeni profilli sosial müəssisəyə qayıtmışlar.

## RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin uşaqların ailələrinə qovuşmasına köməyi

Uşağın Rusiyada harada və hansı statusda, uşaq müəssisəsində, onu qəbul etmiş ailədə olmasının, Rusiya vətəndaşı olub-olmamasının heç bir fərqi yoxdur. Əgər uşağın müvafiq hüquqlara malik valideyni yaxud başqa qohumu varsa, o zaman onun ailəyə qovuşması üçün bütün imkanlar mövcuddur.

*Rusiya Prezidenti Vladimir Putin uşaqların ailələrinə qovuşması ilə bağlı mövqeyi açıq və aydın surətdə ifadə etmişdir: "Biz uşaqların öz ailələrinə qovuşmalarına heç zaman qarşı olmamışıq, əlbəttə, onların qohumları ortaya çıxdıqları təqdirdə. Bunula bağlı hər hansı maneələr heç vaxt olmayıb, yoxdur və, təbii ki, heç vaxt da olmayacaq".*

Əksər hallarda uşaq valideyinlərindən biri yaxud qohumunun yanında qalır. Bu zaman ailənin digər üzvləri ilə də qovuşmaq zərurəti yaranır. Çətinliklər lazımi sənədlərin, nəqliyyat xərclərini qarşılamaq üçün vəsaitlərin olmaması, yaxud ailədaxili mübahisələrlə bağlı ola bilər.

Uşağın ailəsinə qovuşmasının bir neçə üsulu mövcuddur:

- ailələr məsələni müstəqil şəkildə yaxud könüllülər təşkilatlarının köməyi ilə həll edir, bu zaman hər hansı inzibati yardıma ehtiyac qalmır;

- ailələr yaxud könüllülər təşkilatları RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilə müraciət edir;

- ailələr Ukraynanın rəsmi strukturlarına müraciət edirlər, həmin strukturlar isə informasiyanı Rusiyaya, RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilə ötürürlər.

Müvəkkilin aparatı bütün müraciət edənlərə operativ surətdə kömək edir. Bu cür iş XHƏ başlandıqdan sonra aparılır və fərdi xarakter daşıyır.

Bu məqsədlə aparat axtarılan uşaqlar barədə məlumat bazası formalaşdırır. Ukrayna tərəfi ilə hər bir müraciəti emal etməyə imkan verən işçi kanal təşkil olunmuşdur. Həmin kanal vasitəsilə zəruri sənədlərin, infromasiyanın mübadiləsi prosesi baş verir, uşaqların ailələri ilə qovuşması prosesinin əlaqələndirilməsi həyata keçirilir. Bu zaman uşaqlar həm Rusiya, həm də Ukrayna ərazisində ola bilər; belə vəziyyətlər də mövcuddur ki, söhbət üçüncü ölkələrdən, məsələn Aİ-dən gedir.

Müvəkkil aparatı tərəfindən müraciətin emalı alqoritmi altı addımdan ibarətdir:

1. Axtarılan uşağın adının, soyadının və atasının adının və müraciət edən, habelə yerləşmənin ehtimal olunan yeri barədə məlumatların əldə olunması.

2. Olduğu yer haqqında məlumatın dəqiqləşdirilməsi məqsədilə Rusiya DİN-ə sorğunun, Rusiyanın digər strukturlarına və başqa ölkələrə əlavə sorğuların göndərilməsi.

3. Əgər uşaq Rusiyadadırsa, müvəkkil aparatı RF subyektinə yetkinlik yaşına çatmamış şəxsə baş çəkmək və informasiyanı dəqiqləşdirmək xahişi ilə soğru göndərir.

4. Mövqenin və sənədlər siyahısının RF subyektinin səlahiyyətli orqanlarla razılaşdırılması.

5. Uşağın ailəyə qovuşması üçün hüquqi əsasları təsdiq edən zəruri sənədlərin Ukraynadan istənilməsi.

6. Ukrayna tərəfi ilə transfer detalların razılaşdırılması; zərurət yarandığı təqdirdə - Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq.

Uşağın ailəyə qovuşması prosesində müvəkkil aparatı sənədlərin tərcümə olunması və notariat qaydada təsdiqlənməsi, nəqliyyat xərcləri, mehmanxanada yerləşdirilməsi, qida və mobil rabitə ilə təmin olunması, qohumluq əlaqəsini sənədlərlə təsdiqləmək mümkün olmadığı təqdirdə DNT-analizinin aparılması ilə əlaqədar kömək edir.

Müvəkkilin aparatı ilə Ukrayna tərəfi arasında qarşılıqlı fəaliyyət çərçivəsində Rusiyaya daxil olmaq üçün uşaqların ailələrə qovuşması zamanı daha çox Rusiya-Latviya, Rusiya-Estoniya sərhədlərindən istifadə edilir, ölkəyə daxil olmaq üçün bu istiqamətlərdən yaxud Belorusiyadan bilavasitə Ukraynaya getməklə yararlanmaq mümkündür. Bu zaman uşaqların dalınca həm qohumların özləri, həm də etibarlı şəxslər gələ bilər.

*13 oktyabr 2023-cü il tarixə müvəkkil aparatının bilavasitə iştirakı ilə 24 ailədən 35 uşaq Ukrayna və digər ölkələrdə yaşayan qohumlarına qovuşmuşdur. Bu rəqəmlərə valideynlərinin öz istəyi ilə Rusiyanın cənubunda yerləşən istirahət ocaqlarına Xerson, Zaporojye, Xarkov vilayətlərindən və digər ərazilərdən 2022-ci ilin payızında göndərilmiş uşaqlar haqqında məlumat daxil deyil (bax: "Krım Respublikasına və Krasnodar vilayətinə istirahətə göndərilmiş uşaqların və onların valideynlərinin bir-birinə qovuşmasına RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin köməyi" bölümü).*

**Misal 1.** 31 yanvar 2023-cü ildə Ukrayna sakini olan qadın Ryazan vilayətinin sosial-reabilitasiya mərkəzində yaşamış öz kiçik yeniyetmə bacılarına qovuşmuşdur. Bundan əvvəl qızlar anaları ilə birgə fəal hərbi əməliyyatlar gedən ərazilərdən Rusiyaya evakuasiya olunmuş və müvəqqəti yerləşmə məntəqəsində yaşamışlar. Anaları ağır xəstə idi və vəfat etmişdi. Böyük bacıları Volın vilayətində yaşamış və qızları öz yanına götürərək qəyyumluğu rəsmiləşdirmək istəmişdir. Vətəndaş müvəkkil aparatına müraciət etmişdi. Aparat əməkdaşları zəruri sənədlərin toplanılması ilə bağlı ona məsləhətlər vermiş, qəyyumluq orqanları ilə əlaqəni qurmaqda ona köməklik etmiş, eləcə də Moskvadan Ryazan şəhərinə müşayiətedici heyəti təqdim etməklə üç bacının bir-birinə qovuşmasına nail olmuşlar. Sonradan könüllülər vasitəsilə ailə Ukraynaya qayıtmışdı.

**Misal 2.** Ukraynadan olan və yetkinlik yaşına çatmamış beş uşaq anası, Ukrayna vətəndaşı olan xanım XHƏ başlanmazdan bir neçə ay əvvəl pul qazanmaq məqsədilə getmiş, nəticədə onun uşaqları müvəqqəti müəssisəyə yerləşdirilmişdi. Yerli əhalinin həyatına təhlükənin artması ilə bağlı ukrayna hakimiyyət dairələrinin fərmana əsasən uşaqlar Ukrayna vətəndaşının qəyumluğuna verilmişdi. Sonradan qəyyum və uşaqlar Rusiya Federasiyasının ərazisinə köçməklə əlaqədar könüllü surətdə qərar qəbul etmişlər. Ana öz uşaqlarına qovuşmaq istəyində olmaqla qəyyumluq orqanları və müvəkkil aparatı ilə əlaqə saxlamışdı. Könüllülər ona Moskvaya qədər biletin dəyərini ödəmiş, müəvkkil aparatı isə uşaqların olduğu yerə qədər nəqliyyat vasitəsini təqdim etmiş, həmin yerə isə qadını müvəkkil aparatının əməkdaşları müşayiət etmişlər. Ailə 2023-cü ilin yanvarında birləşmişdir.

**Misal 3.** İki uşağın valideyni bir neçə il müxtəlif ölkələrdə yaşayırdı: ata – Ukraynada, ana isə - Rusiyada. Uşaqlar anaları ilə yaşasalar da, o, ağır xəstələnib və 2022-ci ilin noyabr ayında vəfa etmişdi. Beləliklə, uşaqların yaşayışının yeri və şəraiti ilə bağlı məsələlər öz həllini tapmalı idi. Uşaqları həm Kursk vilayətində yaşayan nənələri, həm də Kiyevdə yaşayan ataları qəbul etməyə hazır idi. Ata tərəfindən uşaqların yaşayış yeri üzrə qəyyumluq və himayədarlıq orqanlarına müvafiq ərizə göndərilmiş, öz anasına etibarnamə rəsmiləşdirilmişdir ki, qadın uşaqları Kiyevə gətirə bilsin. Ailə 2022-ci ilin noyabr ayında bir araya gələ bilmişdi.

**Misal 4.** 2022-ci ilin martın əvvəlində qız uşağı Rusiya ərazisinə xalalarının biri ilə daxil olmuşdu. Qızın anası və nənəsi bundan xəbərdar olublar və uşaqla əlaqə saxlayırdılar. Bir sıra amillər nəticəsində qız uşağı sosial-reabilitasiya mərkəzinə düşmüş, habelə uşaqla bağlı bir xoşagəlməz hadisə də baş vermişdir ki, onun həll edilməsi üçün zaman tələb edən müxtəlif növ hüquqi məhdudiyyətlər meydana çıxmışdır.

2023-cü ilin aprel ayında BMT-nin Təhlükəsizlik Şurasının tribunasından qızın anası, Nina Vlasova, bəyan etmişdir ki, uşaq Rusiyada zorla saxlanılır. Onun özü uşağın dalınca gedə bilmirdi, çünki Ukraynanın hərbi qüvvələri ilə bağlı bir şəxs idi.

Uşaqların hüquqları üzrə müvəkkil aparatı hələ ananın çıxışı baş verməzdən öncə bu məsələ ilə məşğul olmağa başlamışdı. Aprelin 26-sı Lipetsk vilayətində uşaqların hüquqları üzrə müvəkkil aparatının əməkdaşı qızla görüşmüşdür. Artıq mayın 3-də Mariya Lvova-Belovanın köməkçisi uşağın evinə qayıtması ilə bağlı detalları müzakirə etmək məqsədilə qızın anası ilə əlaqə saxlamışdır.

Uşağı aparmaq üçün onun doğma nənəsi gəlmişdi. Müvəkkil aparatı mehmanxana və Lipetsk vilayətinə transferlə, zəruri sənədləri tərcümə olunması, sonradan isə Rusiya-Latviya sərhədinə getməsi ilə bağlı lazımi köməkliklər göstərmişdir. Qadını Federal müvəkkil aparatının əməkdaşı, eləcə də Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi müşayiət edirdilər. RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil qız uşağına təzə telefon hədiyyə etmişdi. May ayinda isə qız və nənəsi Ukraynaya qayıtmışlar.

**Misal 5.** 2023-cü ilin iyul ayında RF Prezidenti yanında uşaqların hüquqları üzrə müvəkkil aparatı nənə, habelə onun 12 və 5 yaşında olan nəvələrinə Donetskdən Ukraynaya – uşaqların analarının yanına getməkdə yardımçı olmuşdur. Kömək etmək xahişi ilə Ukrayna tərəfi müraciət etmişdi. Müvəkkil aparatının əməkdaşları təhlükəsiz marşrut işləyib hazırlamışlar: Rusiyanın bir neçə regionundan keçməklə sonradan Belorussiyaya, oradan da Ukraynaya getmək. Yolun hər bir mərhələsində uşaqların hüquqları üzrə regional müvəkkillər cəlb edilirdi: onlar gedənləri qarşılayır, yolda müşayiət edir, mehmanxana və qatara qədər yola salırdılar. Beynəlxalq Qırmızı Xaç Komitəsi Rusiya və Belorusiyya üzrə nəqliyyat dəstəyi təqdim etmiş, habelə yaşamaq xərclərini qarşılamışdı.

**Misal 6.** 2023-cü ilin sentyabr ayında Federal müvəkkil aparatı 15 yaşlı yeniyetmənin anasına qovuşmasında yardımçı olmuşdur. Oğlan atası ilə XHƏ başlayandan sonra Rusiyaya gəlmişdi, onlar ölkənin cənubunda yaşayırdılar, lakin uşaq Ukraynadakı anası, doğma məktəbi, sinif yoldaşları üçün çox darıxırdı. Nikolayev vilayətindən olan ana uşağı evinə gətirmək qərarına gəlmişdi. Ombusmen aparatı uşağı bütün mərhələlərdə müşayiət edirdi: zəruri sənədlərin rəsmiləşdirilməsi üçün Ukrayna tərəfi ilə qarşılıqlı fəaliyyətdə olmuş, qadına logistika ilə bağlı kömək etmiş, yol və yaşamaq xərclərini qismən ödəmişdi. Krasnodar diyarında, Leninqrad və Smolensk vilayətindəki uşaq ombudsmenlərinin də töhfəsi olmuşdur. Beynəlxalq Qırmızı Xaç Komitəsinin mütəxəssisləri Belorussiya ərazisində hərəkət etməkdə yardımçı olmuş, Belorussiya-Ukrayna sərhədinə qədər müşayiət etmişlər.

*Uşağın ailədə, doğmalarının, xüsusilə də qan qoyumlarının yanında olması uşaqların hüquqları üzrə müvəkkil institutunun prioriteti olmuş və olmaqda davam edir.*

Müvəkkil zərurət yarandığı təqdirdə uşaqların ailələrə qovuşması üzrə operativ tədbirlərin görülməsi üçün regionlarda vəziyyətin monitorinqini aparır (əlavə yardım bütün ailələrə lazım olmur). Rusiya ərazisində uşağın axtarışı üçün vətəndaşlar müvəkkil aparatına obr@deti.gov.ru elektron poçt ünvanı vasitəsilə yaxud deti.gov.ru saytında yerləşdirilmiş formanın köməyi ilə müraciət edə bilərlər.

Bundan əlavə, müvəkkil aparatına Ukrayna ərazisində qalmış uşaqlarına qovuşmağa cəhd edən və Rusiyada yaşayan valideynlərdən və qohumlardan müraciətlər daxil olur. Məsələn, 2023-ü il oktyabrın 11-i müvəkkil aparatının və Ukrayna tərəfinin dəstəyi ilə Ukraynanın sosial-reabilitasiya mərkəzində yaşamış qızı ilə ananın qovuşması reallaşdırılmışdır. Həmin mərkəzə qız uşağını öz valideynlik borcunu yerinə yetirmək öhdəsindən gələ bilməmiş atadan alan Ukraynanın baxımsızlığın profilaktikası sisteminin orqanları yerləşdirmişdir. Aparatın icraatında bu kimi 18 müraciət mövcuddur.

## RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin Krım Respublikası və Krasnodar diyarına istirahətə göndərilmiş uşaqların öz valideynlərinə qovuşmasında köməyi

2023-cü ilin yanvarında müvəkkil Krım Respublikasına və Krasnodar diyarına istirahətə göndərilmiş uşaqların öz valideynləri (qanuni nümayəndələri) – Ukrayna vətəndaşlarına qovuşmasında mövcud olan çətinliklər haqqında regional hakimiyyət orqanlarından və açıq mənbələrdən daxil olmuş informasiyaya reaksiya vermişdir. Müvəkkil ailələrin qovuşması prosesinə qoşulmaq qərarı qəbul etmişdir.

2022-ci ilin yay-payız aylarında cəbhə xəttindəki vəziyyətlə əlaqədar Xerson, Zaporojye, Xakrov vilayətlərindən və digər ərazilərdən olan valideynlər öz övladlarını könüllü surətdə həm də hərbi əməliyyatlardan qorumaq məqsədilə istirahətə yollamışlar. Onları və valideynlərin etibarnamələri əsasında müşayiət edənləri Krım və Krasnodar diyarının sanatoriyaları və sağlamlıq düşərgələri qəbul etmişdi.

Cəbhə xəttində olan vəziyyət uşaqlar və onları müşayiət edənlər üçün evə qayıdan zaman yolun təhlükəsizliyini heç də hər dəfə təmin etmək imkan vermirdi. Buna görə uşaqların qayıtmasına vaxt sərf edilmişdi.

Cəbhə xəttini ötüb keçən təhlükəsiz marşrut qonşu dövlətlərin ərazisindən keçirdi. Uşaqların ailələrinə qovuşmasındakı çətinliklər həm də ona görə yaranırdı ki, öz uşağının dalınca gəlmək valideynlərin hamısının imkanları daxilində deyildi. Çağırış yaşında olan ataları Uktayna hakimiyyəti buraxmırdı, anaların yanında başqa uşaqlar da var idi, eyni zamanda valideynlərin səhhəti də maneələr törədirdi. Uşaqlarını götürə biləcək etibarlı şəxs tapmaq, eləcə də gediş-gəliş üçün vəsait əldə etmək hamıya nəsib olmurdu. Həm Rusiya, həm də Ukraynada, eləcə də Aİ-də yaşayan ailələrə Rusiya və Ukrayna könüllüləri yardımçı olurdu.

Müvəkkil aparatının əməkdaşları şəxsən Krımda uşaqlara baş çəkirdi ki, hamıdan çox yubanmış şəxslərlə bağlı əlavə tədbirlər qəbul etmək mümkün olsun. Hər bir uşaq üzrə fəaliyyət planı işlənib hazırlanmışdı. Krımdakı qrupdan olan iki uşaq üzrə Aİ ölkələrində yaşamış valideylərin axtarışında köməkliyin göstərilməsi üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə müzakirələr aparıldı.

Uşaqların ailələrinə qovuşmasında Rusiya və Ukrayna könüllülər təşkilatları fəal rol oynayırdı. Sonuncular birbaşa Rusiya hakimiyyətinə və müvəkkil aparatına müraciət etməyə cəhd göstərirdi.

O cümlədən həm də müvəkkilin səyləri hesabına bugünkü gündə Krasnodar vilayətində istirahətdə olmuş və qayıtmaları ilə bağlı yubanmış Ukrayna vətəndaşlarının bütün uşaqları ailələrini qovuşmuşdur.

3 aprel 2023-cü ilə tarixə valideynləri tərəfindən Krım Respublikasına istirahət üçün göndərilmiş 2360 uşaqdan 38 uşaq qalmışdı, 19 aprel tarixinə - altı uşaq, 29 may tarixinə isə - üç uşaq. Uşaqların hələlik yarımadada qalmalarının daha məqsədyönlü olması ilə bağlı qərar onların valideynlərinin özləri tərəfindən qəbul edilmişdi. Yekunda iki uşağı sentyabrda valideynləri götürmüş, və 1 oktyabr 2023-cü il tarixə Krımda yalnız bir uşaq – öz valideynlərinin qərarına əsasən, qalmışdı. Bu, 17 yaşlı yeniyetmədir, və o, Rusiyanın ali məktəbində təhsil alır.

## Ukrayna vətəndaşlarının valideynlərinin qərarı ilə Krım Respublikasında tətildə olan uşaqların sayı



## Baxımsız uşaqların hüquqlarının müdafiəsi

2022-ci il ərzində rusiyalı hərbçilər Mariupol şəhərində baxımsız uşaqlar aşkar edir və onları şəhərin sosial xidmətlərinə təhvil verirdilər. Sonradan həmin uşaqlar valideynlərinin himayəsindən məhrum olmuş uşaqlar kimi Donetsk şəhərində yerləşən sosial mərkəzə yerləşdirilmişdi. May ayında 31 uşaqdan ibarət olan bir qrup qanuni nümayəndənin – uşaq sosial mərkəzinin rəhbərinin razılığı ilə sağlamlıqlarını bərpa etmk məqsədilə Moskva vilayətindəki sanatoriyaya göndərilmişdir. Sağlamlıq kursu bitəndən sonra DXR-nın qəyyumluq və himayədirlıq sferasındakı səlahiyyətli orqanlar Moskva vilayətinin qəyyumluq və himayədirlıq sferasındakı səlahiyyətli orqanlar qarşısında həmin uşaqların Rusiya vətəndaşlarının ailələrinə ilkin qəyyumluq üçün sonrakı yerləşdirilməsi ilə bağlı vəsatət qaldırmışdı.

31 uşaqdan ibarət qrupdan:

▶ 3 uşaq filtrasiya tədbirlərindən sonra gəlmiş atalarının ərizəsi ilə könüllülər təşkilatının vasitəsilə müvəkkilə müraciətin edilməsinin növbəti günündə ona təhvil verilmişdi;

▶ 6 uşaq onların istəyi ilə ailə mərkəzlərinə yerləşdirilmişdi, onların, demək olar ki, hamısı uşaqları qəbul etməyə hazır ailələrdə qalmaq niyyətini ifadə etmişlər;

▶ 22 uşaq Moskva vilayətinin sakinlərinin ilkin himayəsinə verilmişdi. Daha sonra bir qız uşağı DXR-də onun ailəsinə yaxın yaşamış qonşusunun himayəsi altına verilmişdi.

Qalmış 28 uşağın hər biri ilə, onları qəbul etməyə hazır olan ailələrdə qalmalarının hazır olduqları ilə bərabər, qohumlarının ya da yaxın tanışlarının ailələrinə qayıtmaları imkanının axtarışı ilə bağlı variantlar da müzakirə olunurdu. Bundan əlavə, uşaqlar Ukrayna tərəfinin onların qayıtmasına maraqlı olması barədə də məlumatlandırılmışdı. Uşaqların çoxu Donetskə qayıtmaq istəmədiklərini bildirmişlər, bu, həm də ona görə idi ki, bu şəhərdə vəziyyət təhlükəsiz deyildi. Bəziləri bildirirdilər ki, hərbi əməliyyatlar bitəndən sonra qayıtmağa hazırdırlar. Qayıtmaq istəyənlərə isə müvafiq köməklik göstərilmişdi.

Bugünkü gündə 27 uşaqdan yeddisi yetkinlik yaşına çatmış və öz qərarları ilə Rusiyada yaşamağa davam edirlər.

2022-ci ilin payızında Rusiya hərbçiləri Ukraynanın Xarkov vilayətinin Kunpansk korreksion internat-məktəbindən 13 uçağı zərzəmilərdə tapmış və atəşlərin getdiyi yerlərdən uzaq əraziyə köçürmüşlər. Uşaqların yanında müəllimləri və tərbiyəçiləri olmamış, sənədlər isə yalnız üçünün üstündə idi. Digər uşaqlar haqqında informasiya şifahi məlumat əsasında qeyd edilmişdi.

Uşaqların yerləşdirildiyi internat-məktəbinin administrasiyası, habelə LXR DİN-in əməkdaşları qalan uşaqların valideynlərinin və digər qanuni nümayəndələrinin axtarışına başlamışlar. İşə Federal müvəkkil aparatı, eləcə də Luqansk Xalq Respublikasının uşaqların hüquqları üzrə Müvəkkili İnna Şvenk də qoşulmuşdu.

Bəzilərinin qoyumlarını operativ şəkildə tapmaq mümkün olmuşdu: noyabr ayında bir yetirməni anasına təhvil vermişlər, dekabrda bir oğlan və bir qız uşağını qəyyum-nənəsinə, yanvarda dörd qardaş və bacını atalarına, martda isə daha bir oğlan uşağını anasına təhvil vermək mümkün olmuşdu.

---

2023-cü ilin mayinda Ukraynalı ananın və Kupyansk internat-məktəbindən aparılmış oğulun bir-birinə qovuşması baş vermişdi. Könüllülərin müraciətindən sonra müvəkkil aparatı logistikada kömək etmiş, avia və dəmir yolu biletlərini almış, mehmanxana ilə təmin etmişdi. Həmçinin müxtəlif mərhələlərdə ailəni Rostov vilayətinin və LXR-nın uşaqların hüquqları üzrə müvəkkillər, Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları müşayiət edirdilər.

---

2023-cü ilin iyununda bir qardaş və bacını anaları götürmüşdü. Həmin qrupdan sonuncu

olan uşaqlar – yenə də bir qardaş və bacı – bu ilin sentyabr ayının əvvəlində öz analarına qovuşmuşlar. Bugünkü gündə korreksion Kupyanskı internat-məktəbindən olan bütün uşaqlar öz ailələrindədirlər.

## Valideynlərin himayəsindən məhrum olmuş uşaqların rusiyalı vətəndaşların ailələrində yarləşdirilməsi

*2022-ci ilin aprel-oktyabr aylarında ölkənin 19 regionundan olan rusiyalı vətəndaşların ailələrinə yetim və valideynlərin himayəsindən məhrum olmuş DXR və LXR-dan olan 380 uşaq yerləşdirilmişdir.*

Uşaqların əksəriyyəti uzun müddət ərzində respublika uşaq evlərində qalırdı. Bunlar, əsasən, siblinq-uşaqlar, yəni 3-9 nəfərdən ibarət ailə qruplarından olan uşaqlardır, onların bəziləri – sağlamlıq durumunda xüsusiyyətlərə malikdirlər. Ənənəvi olaraq belə uşaqların yerləşdirilməsi məlum çətinləklərlə bağlıdır. Bundan əlavə, DXR və LXR-da yaranmış vəziyyətlə əlaqədar uşaqları qəbul etməyə hazır olan ailələr tapmaq olduqca çətindir.

Başa düşmək vacibdir ki, DXR və LXR əraziləri uzun illər ərzində Ukrayna Silahlı qüvvələri tərəfindən atəşə tutulurdu və bu haqda həmin respublikaların sosil müəssisələrindən olan yetim uşaqların əksəriyyəti bilir. Uşaqlar Rusiyanı düşmən kimi qəbul etmirlər, ondan müdafiə və yardım gözləyirlər, odur ki, uşaqları qəbul etməyə hazır olan və təhlükəsiz ərazilərdə yaşayan ailələrdə yaşamaq bu uşaqlar üçün sarsıntıya səbəb ola biləcək bir hal deyil.

İşin hamısı Donbass respublikalarının rəhbər şəxslərin və səlahiyyətli orqanlarının xahişi və fəal iştirakı ilə aparılırdı. 27 nəfərdə ibarət olan uşaqların ilk qrupu 2022-ci ilin aprelində DXR-nın qəyyumluq və himayədarlıq sferasında fəaliyyət göstərən səlahiyyətli orqanlarının qərarı ilə Moskva vilayətində yaşayan ailələrə müvvəqqəti qəyyumluğa verilmişdi.

Uşaqların belə ailələrə yerləşdrilməsində kömək müvəqqəti və təcili xarakter daşıyırdı: uşaqları atəşlərdən tez bir zamanda xilas etmək və onlara müvəqqəti mühit təmin etmək lazım idi. Alternativ qismində uşaqların uşaq müəssisələrində yaxud təhlükəsiz rayonlarda yerləşmə hesab oluna bilərdi, lakin bu, müəssisələrdə kollektiv surətdə qalmaqla bağlı əlavə risklər yaradır, həmçinin deinstitutlaşdırma istiqamətinə dünya, o cümlədən də Rusiya vektoruna uyğun gəlmir.

Qəyyumluğa verilmiş uşaqlar arasında həm də Mariupolda baxımsız kimi tapılmış 22 nəfər yetkinlik yaşına çatmamış uşaq da var idi.
Qəyyumluğa götürülmüş bütün uşaqlar Rusiya Federasiyası vətəndaşlığı almış və LXR, DXR yaxud Ukrayna vətəndaşlığını saxlamışlar. Valideynlərin himayəsindən məhrum olmuş uşaqların Rusiyada ailələrə yerləşdirilməsinin mövcud formalarını fərqləndirmək vacibdir.

Rusiya qanunvericiliyinə uyğun olaraq, qəyyumluq və himayədarlıq valideynlərin himayəsindən məhrum olmuş uşağı qəyyumluq və himayədarlıq orqanının qərarına əsasən ailəyə operativ şəkildə yerləşdirməyə imkan yaradır. Övladlığa götürmə isə övladlığa götürən və övladlığa götürülən arasında valideynlər və onlar tərəfindən dünyaya gətirilmiş övladlar arasında mövcud olan münasibətlərə analoji münasibətlərin qurulmasına gətirib çıxarır və məhkəmə qərarılə həyata keçirilir.

Uşaqların qəyyumluq və himayədarlığa götürülməsi yetkinlik yaşına çatmayanların aşkar edildiyi təqdirdə onların qan qoyumları ilə potensial qovuşması nəzərə alınmaqla yerləşdirmənin daha üstün hesab olunan forması kimi müəyyən edilmişdir, habelə uşaqların hüquqları haqqında Konvensiyaya uyğun gəlir. Həmin Konvensiyada qəbul olunur ki, uşaqlara şəxsiyyətlərinin tam və harmonik inkişafı üçün ailə mühitində böyümək, xoşbətlik, sevgi və anlaşma şəraitində yaşamaq lazımdır.

*2022-ci ilin aprel-oktyabr aylarında DXR və LXR-dan olan uşaqlara münasibətdə ailələrdə yerləşdirməyin forması kimi istifadə edilmirdi.*

### "Ertəsi gün" növbəsi

Müvəkkil hərbi əməliyyatların keçdiyi ərazilərdə olan yeniyetmələr üçün növbələr keçirir. 2022-ci ilin avqust ayından on bir belə növbə baş tutmuşdur. Onların iştirakçıları Donetsk və Luqansk xalq respublikalarından, Xerson, Zaporojye, Belqorod, Bryansk və Kursk vilayətlərindən olan 1980 yeniyetmə olmuşdur.

Proqram yeniyetmələrin intensiv sosial və psixoloji reabilitasiyasına hesablanıb.

Bütün növbələrdə psixoloji dəstək xidməti fəaliyyət göstərir, peşə oriyentasiyasına yönəlmiş tədris proqramı keçirilir, çünki iştirakçılar – böyük uşaqlar və buraxılış sinifərin şagirdləridir. Yeniyetmələr treninqlərə, master-klasslara, idman məşğələlərinə gedir, ekskursiyalara yollanır, Rusiyanın tarixi və mədəniyyəti ilə tanış olurlar.

Növbələrin proqramına hərbi hazırlıq daxil deyil.

Növbələr yeniyetmələrin istəkləri və problemlərinin həllində öz effektivliyini nümayiş etdirib, bu da psixoloji diaqnostik müayinələrin, eləcə də onların valideynlərinin rəyləri ilə öz təsdiqini tapır. Uşaqların psixoloji vəziyyəti sabitləşir, onlar özünə yardım üsullarını mənimsəyirlər. Belə ki, psixoloqların qənaətlərinə görə, növbələrdən birinin iştirakçılarının 36 faizi malik olduqları güclü tərəfləri dərk etmiş, yeni davranış strategiyaları tapmış, arzu etdikləri peşədə inkişaf etmək üçün nəyə ehtiyac olduqlarını anlamışlar. Uşaqların 28 faizində həyacan azalmış, onlar daxili aqressiyaları ilə mübarizə aparmağı öyrənmiş və özlərinə görə qürur hissini keçirməyi bacarmışlar.

*"Psixoloq etibar edə və açıla, məni narahat edən hər şeyi danışa biləcəyim tək insan idi və o, öz problemimi həll etməkdə mənə yardımçı oldu. Bizim çox maraqlı treninqlərimiz olurdu və mən onlara getmək istəyirdim!"*

Vladislav S, 17 yaş, DXR

*"Yeni yerlərdə olmaq, mütəlif şəhərlərdən olan insanlarla tanışlaq və dostluq yaratmaq olduqca maraqlı idi. Dəstə başçısı və psixoloq cəmi 14 gün ərzində vahid böyük ailəyə çevrilməyimizə çox kömək etdilər. Bu nailiyyət heyranlıq doğurur."*

Yeqor N, 16 yaş, Zaporojye vilayəti

*"Növbə mənim çox oşuma gəlmişdi, orada bizimlə hər zaman eyni dalğada olan mehriban dəstə başçıları və mükəmməl proqram var idi. Biz birləşməyi və əsl komanda olmağı bacardıq. Hər gün maraqlı dərnəklər var idi – riyaziyyat, analitika üzrə. Düşərgə özümü dəyişmək üçün bir təkan verdi!"*

Artyom M, 15 yaş, Belqorod vilayəti

*"Mən düşərgəyə düşdüyümə görə çox şadam! Onun haqqında unudulmaz təəssüratlar qalıb. Dəstə mənim böyük ailəm oldu. Mən iki dəstə başçımızı həmişə xatırlayacam! Onlara çox sağ olun deyirəm! Əgər imkanım olarsa, bir daha bura gəlmək istərdim."*

Artyom V., 17 yaş, Kursk vilayəti

Növbələr xeyriyyəçilərin vəsaitləri hesabına keçirilir, iştirkçılar üçün yaşayış və yol xərcləri pulsuzdur. İşaqlar növbələrdə ancaq öz istəkləri, eləcə də valideynlərinin raziliği ilə iştirak edirlər, müvəkkilin ünvanına istəyənlərdən çoxlu sayda soğrular və yekuna görə xeyli minnətdarlıqlar daxil olur.

### "Birbaşa uşaqlara" humanitar aksiya

2022-ci ilin aprel ayında "Rus humanitar missiyası" və digər tərəfdaşlarla ilə əməkdaşlıq çərçivəsində müvəkkilin humanitar missiyasına - "Birbaşa uşaqlara" aksiyasına start verilmişdir.

Onun əsas ideyası – ünvanlılığındadır: konket ailələrdən və uşaq müəssisələrindən daxil olan

konkret soğrular üzrə iş. Humanitar konvoylar Rusiyanın yeni regionlarında müvəqqəti yerləşmə məntəqələrinə və aksiyaların operativ qərargahlarına yüklər çatdırır. Hazırki dönəmdə beş humanitar qərargah fəaliyyət göstərir – Donetsk, Mariupol, Luqansk, Melitopol və Qeniçeskdə. Oradan humanitar yardım ünvanlı şəkildə ehtiyacı olan yetkinlik yaşına çatmayanlara, uşaqlı ailələrə, uşaq müəssisələrinə, o cümlədən də fəal hərbi əməliyyatlar gedən rayonlara. Tamamlanmamış 2023-cü il üzrə qərargahlara uşaqlı ailələrdən 3 minə yaxın müraciət daxil olmuşdur. Onlar ünvanlı yardıma aid idi: ərzaq dəstləri, fərdi gigiyena vəsaitləri, geyim, dəftərxana ləvazimatları, məişət texnikası və mebellə təminat, yaşayışşəraitinin yaxşılaşdırılmasında kömək, sənədlərin əldə edilməsi və sosial ödənişlərin rəsmiləşdirilməsi.

*Aksiya çərçivəsində artıq 27 humanitar konvoy təşkil edilmişdir. Ünvanlı yardımı 12,8 mindən artıq insan almışdır. Ümumilikdə 240 tondan artıq dəyəri 164 milyon rubldan çox dəyərində yardım çatdırılmışdır.*

Humanitar yükün tərkibində - əlil uşaqlar üçün dərman və vitaminlər, xüsusiləşdirilmiş qidalar, əlil arabaları, vertikalizatorlar, trenajorlar, geyim və ayaqqabı, yataq ləvazimatları, fərdi gigiyena vasitələri, dəftərxana ləvazimatları, qida məhsulları olub. Qışda son dərəcə mühüm tələbatlar siyahısına isinməyə imkan verən vəsaitlər: isti yorğanlar, portativqızdırıcılar, elektrik enerjisinin avtonom təchizatı üçün generatorlar başçılıq edirdi.

Bundan əlavə, xeyriyyəçilik məqsədilə ayrılmış vəsaitlər hesabına kompüter sinifləri və ailə tipli müvvəqqəti yerləşmə məntəqələri təchiz edilmiş, uşaq tibb müəssisələrinə zəruri dərmab vasitələri və avadanlıqlar çatdırılmış, LXR, DXR, Zaporojye və Xerson vilayətlərində məktəblilərin dərs ilinin başlanması ilə əlaqədar hazırlığına kömək göstərilmişdir.

2023-cü ilin avqustunda Zaporojye vilayətinin Melitopol şəhərində yerləşən iki incəsənət məktəbi üçün musiqi alətləri alınmış və çatdırılmışdır. Həmçinin Mariupolda gənc balerinalar üçün klassik xoreoqrafiya üzrə master-klasslar təşkil edilmişdir, bununla bağlı xahişlə RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkili yerli qadın sakinlərindən biri xahiş etmişdi.

Cari ilin sentyabrında "məktəblidən məktəbliyə" adlı xeyriyyəçilik aksiyası baş tutmuşdu. Yeni regionlara 250 uşaq üçün 1,5 ton dəftər, gündəlik, qələm, karandaş, flomaster, albom və digər dəftərxana məhsulları göndərilmişdir.

Bundan əlavə, "Birbaşa uşaqlara" adlı xeyriyyəçilik aksiyası çərçivəsində Mariupolda (DXR) "Rodina" ("Vətən") parkında idma meydançasının qurulması planlaşdırılır.

### "Xoşbəxt uşaqlıq" adlı xeyriyyə layihəsi

2023-cü ilin yanvarından RF Prezidenti yanında uşaqların hüquqları üzrə müəvkkil və "Müqəddəs Böyük Vasili" Xeyriyyə fondu "Xoşbəxt uşaqlıq" layihəsini həayat keçrir. Burada xeyriyyə vəsaitlərin cəlb edilməsi və onların uşaq sosial müəssisələrinin ehtiyacları üçün yönəldilməsi, habelə Rusiyanın yeni regionlarında uşaqlara və uşaqlı ailələrə ünvanlı yardıma istiqamətləndirilməsi nəzərdə tutulur.

Hazırda layihə üzrə dəstək üç müəssisəyə göstərilir. Bunlar Şaxtyor uşaq internat-evi, (DXR), Krasnodon uşaq internat-evi (LXR) və Terpenyevsk internat-məktəbidir (Zaporojye vilayəti). Hazırki dönəmdə bu müəssisələrin yetirmələri sırasında 450 uşaq və gənc insan var. Onların bir çoxunun əlilliyi var və valideynlərin himayəsindən məhrumdurlar.

Layihə üzrə toplanmış vəsaitlərin bir hissəsi müəssisələrin təmiri və adablaşdırılmasına sərf olunur. Bundan əlavə, vəsaitlər sağlamlığı ciddi şəkildə pozulmuş uşaqlarla işləmək üçün zəruri bacarıq və səriştələrə malik mütəxəssislər ştatının formalaşdırılmasına yönəlir. Müəssisələrin rəhbərlərinin xahişinə görə layihənin vəsaitləri hesabına generatorlar, paltaryuyan və tikiş maşınları, mebel, gigiyena vasitələri alınmış və

çatdırılmışdır. Ternepyev internat-məktəbi üçün on nəfərlik avtobus alınmışdı.

2023-cü ilin martında Şaxtyor və Krasnodon uşaq internat-evlərində Moskva və Moskva vilayətindən yüksəkixtisaslı həkimlərdən ibarət komanda işləyirdi. Onlar uşaqlara baxılması, müalicəsi və reabilitasiyası ilə bağlı tövsiyyələr vermişlər.

Digər sosial müəssisələrə də kömək göstərilir. Xeyriyyə aksiyası çərçivəsində həmçinin Respublika psixoloji-tibbi-pedaqoji- komissiyası (LXR) üçün bahalı xüsusiləşdirilmiş texnikanın, o cümlədən interaktiv loqoped güzgüsünün, sensorlu plastinaların, trenajorların, eləcə də uşaqların intellektinin tədqiq edilməsi üçün testlər və metodik materialların alınmasına 750 min rubl məbləğində vəsait toplanılmışdı.

2023-cü il iyunun 1-də Moskvada "Xoşbəxt uşaqlıq" festivalı – bütün yaş kateqoriyalarından olan uşaqlar üçün təhlükəsiz kontentin ilk festivalı keçirilmişdir. Bu tədbirə 6 mindən artıq insan qatılmışdır – biletlərin satışından əldə olunmuş vəsaitlər eyni adlı xeyriyyəçilik layihəsinin dəstəklənməsinə yönəlmişdir.

İşçi səfər zamanı 2023-cü ilin avqustunda əvvəl hədiyyə olunmuş sertifikat çərçivəsində Mariya Lvova-Belova Donetsk Respublika ixtisaslaşdırılmış uşaq evinə yeni avtomobil, DXR Səhiyyə Nazirliyinin Respublika travmatologiya mərkəzinə mənfi təzyiqlə yaraların müalicəsi üçün aparatları, eləcə də uşaqların maraqla və faydalı şəkildə öz asudə vaxtlarını keçirmək imkanı verən yeni yeniyetmə məkanının yaradılması üçün LXR-nın nümayəndələrinə 5 milyon rubl dəyərində sertifikat hədiyyə etmişdi.

Bundan əlavə, uşaqlı ailələrə ünvanlı yardım göstərilir.

Belə ki, Zaporojye vilayətindən olab çoxuşaqlı ailə üçün miniven alınmışdı. Valideynlər doqquz uşaq böyüdür, onlardan yeddisi himayədarlığa götürülmüşdü. DXR-dən olan çoxuşaqlı anaya ikimərtəbəli evin alınmasına sertifikat təqdim edilmişdir. Qadın təkbaşına səkkiz uşaq böyüdür, çünki onların atası – hərbi qulluqçu, ötən ilin aprelində həlak olmuşdu. 2023-cü ilin sentyabr ayında tək yaşayan və XHƏ zamanı ayağını itirmiş çoxuşaqlı ata üçün geniş ev alınmışdı.

"Ağ yaylıq" aksiyası uğurla keçmişdir: aksiya zamanı hərbi əməliyyatlar keçən zonalardan köçürülmüş insanların, uşaqlı ailələrin, eləcə də uşaqların maraqlarının təmin edilməsində yardımçı olan təşkilatların ehtiyacının ödənilməsinə 3 milyon rubl vəsait toplanılmışdır.

## Uşaqların reabilitasiyası və müalicəsinə kömək

Aparatın işinin ayrıca bir istiqaməti – Ukraynanın hərbi təcavüzü nəticəsində zərər çəkmiş uşaqların reabilitasiyasına kömək. Artıq DXR-dən olan uşaqların tibbi reabilitasiya və sanatoriya-kurort müalicəsi üçün iki səfəri baş tutdu:

▶ əlilliyi olan 23 uşaq Moskva vilayətinin Krasnoqorsk şəhərində yerləşən "Sozvezdiye" ("Bürc") mərkəzində kompleksli psixoloji-tibbi-sisoal müşayiət proqramını keçiblər;

▶ mərkəzi sinir sisteminin xəstəlikləri səbəbindən hərəkət aparatında pozuntular, o cümlədən USP olan 12 uşaq valideynləri və qanuni nümayəndələri ilə birgə Çoskva vilayətinin Eletrkostal şəhərində yerləşən "Oqonyok" ("Ocaq") mərkəzində sanatoriya-kurort müalicəsində olmuşlar.

2023-cü ilin avqust ayında Mariya Lvova-Petrova Donetskdəki Respublika klinik xəstəxanasında Qorlovkada Ukrayna silahlı qüvvələrinin atəşi altına düşmüş və son dərəcə ağır yaralanmış 16 yaşlı Kirilə baş çəkib. Oğlanın anası bundan əvvəl uşağın Moskvada müalicəsinin davamı və reabilitasiyasına köməklik göstərilməsi ilə bağlı müvəkkilə müraciət etmişdir.

Sentyabrın əvvəlində Kiril Moskvadakı federal tibb mərkəzinə köçürülmüşdür. Eyni zamanda reabilitasiyaya Şaxtyor uşaq internat-evindən də iki uşaq gəlmişdi.

Müvəkkil aparatı mina-partladıcı zədələrə malik uşaqların müalicəsinin və tibbi reabilitasiyasının təşkili, o cümlədən protezləşdirmə ilə də kömək edir. Müvəkkilin köməkliyi ilə uşaqlar ölkədə öz profili üzrə ən yaxşı paytaxt və federal klinikalara

göndərilir. Məsələn, Təxirəsalınmaz uşaq cərrahiyəsi və travmatologiya elmi-tədqiqat institutuna.

Belə ki, DXR-dan olan bir oğlan uşağı ağır mina-partladıcı zədələr almışdır və Təxirəsalınmaz uşaq xirurgiyası və travmatologiya elmi-tədqiqat institutuna yerləşdirilmişdir. Onu müalicə etmək, kompleks reabilitasiyasının bütün zəruri mərhələlri yerinə yetirmək, habelə uşağı protezləşdirməyə hazırlamaq üçün həkimlər mümkün olanın hamısını ediblər. "Motorika" MMC-nin mütəxəssisləri sayəsində yeniyetmə qolun bioloji protezini əldə etmişdir. Bütün funksiyaları öyrəndikdən sonra oğlan yenidən hər iki əlindən istifadə edə biləcək. Bioloji protezə sərf edilmiş vəsait 1,5 milyon rubl təşkil etmişdir və bu məbləğ müvəkkil tərəfindən cəlb olunmuş xeyriyyə vəsaitləri hesabına ödənilmişdir.

2023-cü ilin iyulunda müvəkkil DXR-dan olan 13 yaşlı yeniyetmənin Təxirəsalınmaz uşaq xirurgiyası və travmatologiya elmi-tədqiqat institutuna nəql olunmasında və reabilitasiyasının təmin edilməsi şərtilə yerləşdirilməsinə köməklik göstərmişdir.

### Beynəlxaxlq qarşılıqlı fəaliyyət

RF Prezidenti yanında uşaqların hüquqları üzrə müvəkkil beynəlxalq təşkilatların nümayəndələri və xarici dövlətlərin rəsmi şəxsləri ilə qarşılıqlı fəaliyyət üçün açıqdır. XHƏ-nin həyata keçirilməsi zamanı onlarla bir neçə görüş baş tutmuşdur.

Belə ki, 2022-ci ilin oktyabr ayında BMT-nin Qaçqınlarla iş üzrə Ali komissarı İdarəsinin Rusiya Federasiyasında nümayəndəliyinin Başçısı Kərim Atassi ilə müvəkkilin görüşü keçirilmişdir. Uşaq ombudsmeni XHƏ-nin aparıldığı ərazilərdən olan yetim uşaqlara, habelə valideynlərin himayəsindən məhrum olmuş uşaqlara sosial dəstəyin göstərilməsi haqqında müfəssəl məlumatı təqdim etmişdir. Bundan əlavə, nümayəndəliyə göndərdiyi soğruya əsasən əlavə məlumat da təqdim edilmişdir.

2023-cü ilin yanvarında YUNİSEF-in Avropa və Mərkəzi Asiya ölkələri üzrə Bölməsinin regional direktoru Afşan Xanla görüş baş tutmuşdur. Müvəkkil atışə məruz qalan rayonlardan uşaqların köçürülməsi, oqyumlarının axtarışı, uşaqların ailələrə qovuşması və s. haqqında danışmışdır.

Bundan əlavə, müvəkkil aparatı beynəlalq Qırmızı Xaç Komitəsi ilə üçüncü ölkələrdə uşaqların axtarışı və onların öz ailələrilə qovuşması məsələlərini müzakirə edir. BQXK-yə uşaqların və onların Avropa İttifaqı ölkələrində yaşayan qoyumlarının əlaqə məlumatları ötürülmüşdür.

Hazırda uşaqların ailələrinə qovuşması üzrə halların bir hissəsinin işlənməsi BQXK-nin fəal dəstəyi ilə baş verir. Komitənin nümayəndələri transferin və yaşayış xərclərinin qarşılanmasının, Belarussiya vasitəsilə Rusiyadan Ukraynaya humanitar dəhlizin təşkilində, eləcə də üçüncü ölkədə olan uşaqların axtarışı və onların Rusiya ərazisində yaşayan valideynləri ilə qovuşmasında köməklik göstərirlər.

2023-cü il aprelin 5-də Mariya Lvova-Belova "Uşaqlar və silahlı münaqişə: Ukrayna böhranı" mövzusuna həsr olunmuş "Arria düsturu" üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-formal iclasında çıxış etmişdir. Donbasda mövcud olan vəziyyət haqqında məruzələri həmçinin DXR-də İnsan hüquqları üzrə müvəkkil Darya Morozova, uşaqların hüquqları üzrə DXR başçısının müşaviri Eleonora Fedorenko, Donetskdən həkim-travmatoloq Yevgeni Jilitsin təqdim etmişdilər. "Birbaşa uşaqlara" humanitar aksiyanın cari nəticələrlə onun rəhbəri Aleksey Petrov bölüşmüşdür.

2023-cü il may ayının 16-da Mariya Lvova-Belovanın Rusiya Federasiyasında və Belarus Respublikasında Beynəlalq Qırmızı Xaç Komitəsinin nümayəndə heyəti ilə işçi görüşü baş tutmuşdur. Uşaqların, onların valideynlərinin və digər yaxın qohumlarının axtarışı ilə bağlı məsələlər ətraflı surətdə nəzərdən keçirilmişdir. Qarşılıqlı fəaliyyətin davam etdirilməsi ilə bağlı razılıq əldə olunmuşdur.

2023-cü il mayın 19-u müvəkkil Uşaqlar və silahlı münaqişələr məsələsi üzrə BMT Baş katibinin Xüsusi nümayəndəsi Virciniya Qamba ilə görüşdü. Söhbətin açar mövzusu münaqişənin təsir göstərdiyi uşaqların hüquqlarının müdafiəsi idi. Yetkinlik yaşına çatmalaynara qarşı mümkün pozuntuların qarşısının alınması tədbirləri müzakirə edilirdi.

2023-cü il iyunun 29-u Moskvada Mariya Lvova-Belovanın İtaliyanın Yepiskopların katolik konfransının Sədri kardinal Matteo Dzuppi ilə işçi görüşü keçirilmişdir. Tərəflər hərbi fəaliyyətlə və uşaqların hüquqlarının müdafiəsi ilə bağlı humanitar məsələləri müzakirə etmişlər.

2023-cü il iyulun 4-də müvəkkil Qətərin Rusiyada Fövqəladə və səlahiyyətli səfiri Əhməd Ben Naser Ben Casem Al Tani ilə görüşmüşdür. Söhbətin mövzusu həmçinin hərbi əməliyyatlarla rastlaşmış yetkinlik yaşına çatmayanların sağlamlığının və həyatının qorunması ilə bağlı Rusiya tərəfinin fəaliyyəti, eləcə də XHƏ zamanı bir-birindən ayrı düşmüş uşaqların və onların valideymnlərinin bir-birinə qovuşması olmuşdur.

## Müvəkkilin və Ukrayna hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyəti

XHƏ başlandığı andan Ukrayna hakimiyyət orqanları RF Prezidenti yanında uşaqların hüquqları üzrə müvəkkilə rəsmi surətdə müraciət etməyib. Qeyd edək ki, Mariya lvova-Belova Ukrayna tərəfi ilə qarşılıqlı fəaliyyət üçün açıqdır, və əgər rəsmi sorğular daxil olsaydı, onlar nəzərdən keçiriləcəkdi.

Zaman-zaman müvəkkil aparatı ilə Ukrayna arasında informasiyanın mübadiləsi, məlumatların verifikasiyası, uşaqların öz ailələrinə qovuşması prosesinin koordinasiyası üçün rabitə kanalı yaranmışdır. Bu kanal üzrə iş müntəzəm və konstruktiv şəkildə baş verir.

Bununla yanaşı, hazırki vaxta qədər Ukraynada hakimiyyət orqanları arasında razılaşdırılmış hərəkətlərin olmadığı müşahidə edilir ki, bu da uşaqların ailələrinə qovuşması prosesini ləngidir. Digər kanallar üzrə və vasitəçilərlə uşaqların təqdim olunan siyahıları real vəziyyəti əks etdirmir, orada yer alan informasiya hər zaman aktual və doğru olmur.

Bundan əlavə, Ukrayna tərəfi Belorussiya vasitəsilə Rusiya tərəfə uşaqları götürmək üçün Ukraynadan yollanan qoyumların yaxud etibarlı şəxslərin daha sürətli və optimal transferini razılaşdırmır, baxmayaraq ki, bu, qovuşma prosesini əhəmiyyətli dərəcədə sürətləndirməcəkdi.

## Ukraynanın uşaqların maraqlarına zidd yönəlmiş hərəkətləri

Bilavasitə XHƏ zonasında müvəkkilin və onun aparatının işi, uşaqlar və onların valideynləri ilə ünsiyyəti, kütləvi informasiya vasitələrində dərc olunmuş materialların təhlili göstərir ki, Ukrayna uşaqların maraqlarına zidd hərəkət edir:

▶ İlk öncə Ukrayna uşaqları hərbi əməliyyatların getdiyi təhlükəli zonalardan təxliyyə etmədi, və onlar ukrayna hərbçiləri və neonasistləri üçün canlı qalxan qismində çıxış edirdi. Hazırda Ukrayna məcburi evakuasiya aparır – bunu yerdəyişmə tərəfini seçmək hüququ vermədən edir, lakin bizə daxil olan məlumatlara görə, bir sıra ailələr Rusiya ərazisinə köçmək istərdilər.

▶ Ukrayna rusiyalı ailələri və onlar tərəfindən himayədarlığa götürülmüş Donbasdan olan yetim uşaqları, eləcə də Rusiyanın yeni regionlarında uşaqlara humanitar yardımın göstərilməsində iştirak edən rusiyalı mütəxəssisləri və onların ailələrini təqib edir. Onların ünvanına telefon və sosial şəbəkələr vasitəsilə təhdidlər yağdırılır. İnernetdə açıq şəkildə ailələrin və mütəxəssislərin şəxsi məlumatları yerləşdirilir. Uşaqların ailələrinə qovuşması prosesində köməklik göstərən könüllülər, humanitar layihələrin əməkdaşları təqiblərə məruz qalır.

---

*2023-cü ilin aprel ayında Rusiyada onu qəbul etmiş ailədə yaşayan Mariupol şəhərindən yeniyetmə yetim oğlana Ukrayna ərazisindən telefon zəngləri və mesajları ilə hücum çəkmişdilər. Onu deməyə məcbur edirdilər ki, həmin ailəyə yeniyetmə zorla yerləşdirilib və uşaq geri qayıtmaq istəyir. Oğlan bundan imtina etdikdən sonra onu bacılarının həyatı ilə təhdid etməyə başladılar. Bacılarını xilas etmək üçün yeniyetmə Ukraynaya qayıtmaq məcburiyyətində qalmışdı. Provokasiyanın qarşısını almaq mümkün oldu.*

---

▶ Ukrayna Rusiyaya qısamüddətli istirahətə göndərilmiş uşaqların valideynlərinə təzyiqlər göstərir, onların tezliklə qayətmalarını tələb edir və Rusiya tərəfindən istirahətin təşkilatçılarına qarşı ifadələr verməyə məcbur edir.

▶ Ukrayna tərəfindən, misal üçün, "Save Ukraine" kimi qeyri-kommersiya təşkilatları fəaliyyət göstərir ki, onlar Rusiya tərəfindən olan partnyorları ilə uşaqların ailələrə qovuşması üzrə fəaliyyətini razılaşdırmır, uşaqların qoyumlarını təlimatlandırır, onlara əfsanələr uydurur və həmin qohumlar bu uydurmaları, öz növbəsində, sərhəd xidmətinin əməkdaşlarına danışırlar. Nəticədə Rusiya sərhədini keçmək, uşaqları təhvil vermək baxımından zəruri sənədlərin hazırlanmasını gözləmək üçün tələb olunan vaxt artır ki, bu da uşaqların ailələrə qovuşmasını ləngidir, habelə ona gətirib çıxarır ki, sərhədin keçməsində çətinliklər meydana gəlir, xüsusən də bu, insanlar özlərini tamam başqa adamlar kimi qələmə verməyə çalışdığı zaman baş verir.

▶ Ukrayna Belqorod, Bryansk və Kursk vilayətlərinin uyaşayış məntəqələrini planlı şəkildə atəşə tutur, bunun nəticəsində həm də uşaqlar əziyyət çəkir. Müvəkkil sərhədyanı rayonların mülki sakinlərinə yardımların göstərilməsində iştirak edir.

▶ Ukraynanın dəstəyilə açıq məlumatlardan istifadə edilməklə uşaqların təqib olunması üzrə təşəbbüslər reallaşdıdılır.

▶ Ukrayna uşaqların ailələri ilə qovuşması işini çətinləşdirən feyklər yaradır, o cümlədən, Rusiyanın hərəkətlərinə qarşı uşaqlarda, onların valideynləri və qohumlarında etibarsızlıq hissi yaradır. Misal üçün, childrenofwar.gov.ua saytında guya axtarılan ukrayna uşaqları barədə informasiyalar dərc edir. Müvəkkil aparatı orada yerləşdirilmiş məlumatlatrı dəfələrlə yoxlamış və uyğunsuzluqlar aşkar edirdi: belə ki, uşaqlar sağlamlıq düşərgəsindən artıq çoxdan evlərinə qayıdıb, öz ailələrinə qovuşub, lakin onlar barədə məlumatlar saytda qalmaqda davam edir. Qohumların bir hissəsi əlaqəni bu və ya digər səbəblər üzündən itirdikləri vaxt XHƏ-nin ilk aylarında sayta soğrular göndərirdi, amma artıq uşaqlar tapılıb. Beləliklə, qeyd etdiyimiz resursda guya zorla Rusiyaya aparılmış 19 min uşaq haqqında yer alan iformasiya həqiqətə uyğun deyil və ona etibar etmək olmaz.

### Açıq məkanda dezinformasiya

Təəssüflər osun ki, Rusiya Federasiyası və RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin XHƏ zamanı uşaqların xilası və hüquqlarının qorunması üzrə işi barədə informasiya xarici KİV-lər və siyasətçilər tərəfindən təhrif olunmuş formada təqdim edilir: fərz edirik ki, müəyyən hallarda bu, bilərəkdən edilir, digər hallarda – vəziyyətdən xəbərdar olmaması yaxud qeyri-peşəkarlıq səbəbindən.

Ukrayna misli görünməmiş dezinformasiya kampaniyası açıb – orada uşaqlığın müdafiəsi məsələsi maksimum dərəcədə siyasiləşdirilir. Belə bir təəssürat yaranır ki, Ukrayna tərəfinə ailələrə kömək etmək deyil, daha çox mifoloji sistem yaratmaq lazımdır.

Xarici KİV-lərin rəhlili göstərir ki, materialların müəllifləri təsdiq olunmamış məlumatlar əsasında RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin fəaliyyəti haqqında nəticələr hasil edir. Onların arqumentasiyası mücərrəddir: adlar, soyadlar, ünvanlar yoxdur, müvafiq olaraq, onu yoxlamaq da mümkün deyil. Mahiyyət etibarilə, KİV-lər feyklərin yaradılması ilə məşğuldur.

Xarici medianın həqiqətə uyğun olmayan tez-tez iddiaları arasında: "Rusiya uşaqları deportasiya edir" (təhlükəsiz bölgələrə gələn uşaqlar haqqında), "Rusiya valideynlərin və uşaqların birləşməsinə mane olur" (bu cür hallar barədə müvəkkilin aparatı məlum deyil; əksinə, hər hansı bir maneəni aradan qaldırmaq üçün müxtəlif səylər göstərilir).

*Terminlərin yanlış istifadəsi problemini də qeyd edək. Belə ki, xarici KİV-lər Donbasdan olan uşaqların onları qəbul etməyə hazır olan ailələrə yerləşdirilməsi ilə bağlı çox vaxt "adaption" (övladlığa götürülmə) terminindən istifadə edir, lakin burada "guardianship" yaxud daha çox şərti mənaya malik "foster care", "custody" terminləri tətbiq etmək lazım idi.*

AZənn edirik ki, bu cür yanlışlıqlar Rusiya Federasiyası və Qərb ölkələrinin qanunvericiliyində həmin məsələyə dair yanaşmalardakı əhəmiyyətli fərqliliklərlə izah oluna bilər.

Bundan əlavə, həqiqətə uyğun olmayan informasiyanın Şəbəkəyə və mediaya atılması məqsədilə Rusiya internet-resurslarına haker hücumları təşkil olunur.

Məsələn, 2022-ci il avqust aylnln 23-də "Meduza" və "Mediazona" nəşrləri Krasnodarın ailə və uşaq məsələləri üzrə idarəetmə saytına istinad etməklə aşağıdakıları bildirmişlər: "Azad olunmuş Mariupoldan 1000-dən artıq körpə Tümen, İrkutsk, Kemerovo və Altay diyarında artıq özlərinə yeni ailələr tapmışlar. Daha 300 körpədən artıq Krasnodar diyarının ixtisaslaşdırılmış müəssisələrində müvəqqəti yerləşdirilib və səbirsizliklər özlərinin yeni ailələrilə tanış olacaqları günü gözləyirlər". 24 avqustda dövlət orqanı bu məlumatın təkzibini dərc edərək bildirmişdir ki, material sanksiyasız yerləşdirilmişdir, burada serverin proqram təminatındakı həssaslıqdan istifadə olunmuşdur, sonradan isə sayt DDoS hücumuna məruz qalmışdır. Buna baxmayaraq, həmin məlumat Ukrayna XİN-in RF vətəndaşları tərəfindənqanunsuz övladlığa götürülməsi ilə bağlı bəyanat üçün bir bihanə olmuşdur. Bununla yanaşı RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovanın XHƏ keçirildiyi zaman uşaqların müdafiəsi üzrə fəaliyyəti maksimum dərəcədə şəffafdır. Bu iş haqqında informasiyanı İnternet şəbəkəsi vasitəsilə əldə etmək azandır – bunun üçün uşaq ombudsmeninin deti.gov.ru rəsmi saytına, müvəkkilik şəxsi səhifələrinə, habelə "Vkontakte" və Telerqam sosial şəbəkələrindəki "Uşaq ombudsmeni" cəmiyyətlərinə daxil olmaq kifayətdir. Bundan əlavə, müvəkkil daimi əsasda press-konfranslar keçirir, Rusiya və xarici KİV-lər üçün müsahibə və şərhlər verir.

Belə ki, 2023-cü il parelin 4-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat-mərkəzində müvəkkilin mətbuat konfransı baş tutmuşdur, Mariya Lvova-Belova aparılan işlər barədə ətraflı şəkildə danışmış, jurnalitslərin, daha çox xarici jurnalistlərin suallarını cavablandırmışdır. Tədbir əyani və onlayn rejimlərində keçmişdir.

Bundan əlavə, 2023-cü ildə müvəkkil eksklüziv müsahibə vermiş, habelə bir sıra xarici KİV-lərə çəkilişlərin aparılmasında yardımçı olmuşdur. Onların sırasında – Vice News amerikan xəbər kanalı, NHK yapon telekanalı, RAI italyan telekanalı, El Pais ispan qəzeti, İsveçrənin Weltwoche jurnalı, ispan 100 Giorni da Leoni videobloqu, Kolumbiyanın W Radio radiostansiyası, Britaniyanın ITV telekanalı.

Daha çox müsahibələrdə eyni suallar verilirdi. Qeyd etmək vacibdir ki, dərc olunmuş bəzi materiallarda yenidən "övladlığa götürülmə" və "deportasiya" kimi yanlış məfhumlardan istifadə olunurdu.

Ukrayna və onun tərəfdarlarının XHƏ zamanı uşaqların müdafiəsi ilə bağlı yaratdığı əsas feyklərə aşağıdakıları aid edə bilərik.

### Feyk №1 "Rusiya uşaqları deportasiya edir və köçürür".

Bu belə deyil. 2022-ci ilin fevral ayından Rusiya Federasiyası Ukrayna və Donbass respublikaların təxminən 4,8 milyon əhalisini deportasiya deyil, qəbul etmişdir.Onlardan 700 mindən artığı – uşaqlardır. Uşaqların

böyük əksəriyyəti öz valideynləri və ya yaxın qohumları ilə Rusiyanın təhlükəsiz regionlarına gəlmişdir. Donbasın uşaq sosial müəssisələri atəşlərdən uşaq ərazilərə köçürülürdü ki, öz yetirmələrinin təhlükəsizliyini təmin etmək iqtidarında olsun.

**Feyk №2 "Rusiyanın övladlığa götürülməsi üzrə proqramı mövcuddur".**

Rusiya Federasiyası XHƏ zonasından olan uşaqların övladlığa götürülməsi üzrə proqrama malik deyil. Övladlığa götürülmüş minlərlə uşaq barədə məlumatlar həqiqətə uyğun deyil. Müvəkkilin köməyi ilə Rusiya ailələrinə qəyyumluq və himayədarlığa 380 nəfər uşaq və valideynlərinin himayəsindən məhrum olmuş uşaq verilmişdir, - böyük ailə qrupları və əlilliyi olan uşaqlar. DXR və LXR-dən uşaqların övladlığa götürülməsi, həmin respublkalar suveren dövlətlər olduğu zaman, müvəkkil aparatının məlumatlarına əsasən həyata keçirilmirdi.

Daha ətraflı – "Himayədarlıqdan məhrum olmuş uşaqların rusiyalı vətəndaşların qəyyumluğuna verilməsi" bölümündə.

**Feyk №3 "Rusiya Ukraynadan olan uşaqları geri qaytarmır".**

Bu və ya digər səbəblərdən ayrılmış ailələrin yenidən qovuşması ilə biz XHƏ başlandığı gündən, ardıcıl və açıq şəkildə məşğul oluruq. Bizə daxil olan müracitələrə operativ surətdə baxırıq: lazım gəldiyi təqdirdə uşağın axtarılmasına yardımçı oluruq, lakin daha çox uşaqlar öz yaxın qohumları ilə olrlar və onların yeri valideynlərinə yaxşı məlumdur. Sənədlərin rəsmiləşdirilməsində kömək edirik. Rusiya ərazisində ananı, nənəni yaxud digər yaxın adamı müşayiət edirik, çox vaxt mehmanxana və gediş xərclərini qarşılayırıq, görüş təşkil edirik. Bu fəaliyyətimizi Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə birgə aparırıq.

Həmçinin diqqət etmək istəyirik ki, ailələrin əhəmiyyətli hissəsi müstəqil surətdə yaxud könüllülər təşkilatların yardımı ilə öz övladlarına qovuşur. Daha ətraflı – "Ailələrin qovuşmasında RF Prezidenti yanında uşaqların hüquqları üzrə müvəkkilin yardımı" bölümündə.

**Feyk №4 "Rusiya Ukrayna tərəfi ilə uşaqların qayıtması məsələsində qarşılıqlı fəaliyyət göstərmir".**

Rusiyanın Ukrayna tərəfi ilə fərdi soğruları emal etmək imkanı verən qarşılıqlı faliyyət kanalı mövcuddur. Zəruri sənədlər, informasiya mübadiləsi baş verir, uşaqların ailələrlə qovuşması prosesi əlaqələndirilir. Bu zaman uşaqlar həm Rusiya, həm də Ukrayna ərazisində ola bilərlər. Daha ətraflı – "Aulələrin qovuşmasında RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilin köməyi".

**Feyk №5 "XHƏ zonasından olan uşaqları vətəndaşlığı Rusiya vətəndaşlığına dəyişməyə məcbur edirlər".**

RF tərkibinə dörd yeni subyektin daxil olmasından sonra onların sakinləri, o ümlədən yetkinlik yaşına çatmamış sakinləri, Rusiya vətəndaşları hesab olunaraq Rusiya pasportlarını rəsmiləşdirmək imkanı əldə ediblər. Yaşı 14-dən 18-ə qədər olan uşaqlar müstəqil surətdə qərar qəbul edirlər. Yaşı 14-ə qədər ilan uşaqların əvəzinə isə ərizə onların qanuni nüçayəndələri – valideynləri yaxud qəyyumları tərəfindən verilir. Yetim və valideynlərin himayəsindən məhrum olmuş uşaqlar üçün isə qanuni nümayəndələr qismində tərbiyə aldıqları sosial müəssisələrin rəhbərləri çıxış edir.

Əgər bundan öncə RF yeni vətəndaşlarının Ukrayna vətəndaşlığı olubsa və onlar bundan könüllü surətdə imtina etməyiblərsə, həm də bu vətəndaşlığını da saxlaya bilərlər. Beləliklə, vətəndaşlığın dəyişməsi haqqında söhbət getmir.

RF tərkibinə daxil olmasından əvvəl DXR və LXR müstəqil respublikalar idi. Onların yaranmasından sonra bu respubliakalr ərazisində anadan olmuş uşaqlar, müvafiq olaraq, DXR və LXR vətəndaşlığını almışlar. 2014-cü il aprealin 7-dən əvvəl doğulmuş

uşaqlar əsasən Ukrayna vətəndaşlığına malik idi.

Referendumlardan əvvəl RF-da köçdükləri zaman DXR və LXR (2019-cu ildən etibarən), Zaporojye və Xerson vilayətlərinin (2022-ci ilin may ayından etibarən) sakinləri və onların yetkinlik yaşına çatmamış uşaqları sadələşdirilmiş qaydada Rusiya vətəndaşlığını qəbul edə bilirdilər ki, RF vətəndaşlarına təqdim olunan hüquqları, o cümlədən də sosial ödənişləri ala bilsinlər.

Vətəndaşlığın qəbul edilməsi prosedurunun sadələşdirilmiş qaydası uşaqların hüquqlarını məhdudlaşdırmır. Rusiya vətəndaşlığı federal və regional qanunvericiliklə nəzərdə tutulmuş sosial dəstək tədbirlərindən yararlanmağa imkan verir, yeni imkanlara, misal üçün, RF ərazisində fəaliyyət göstərən tədris müəssisələrinə qəbul olmağa əlçatanlığı sürətləndirir.

Vətəndaşlığı almadan uşaqlı ailələr və yetim uşaqlar sosial təminatların yalnız məhdud çeşidinə iddia edə bilərlər. Uşaqlar yetkinlik yaşına (18 yaşa) çatanda, onlar sonradan da Rusiya vətəndaşı olub-olmaması ilə bağlı qərarı müstəqil surətdə vermək imkanı əldə edəcəklər. Hazırda, bizə olan məlumatlara görə, əgər insanlar Ukraynaya qayıtmaq istəyirlərsə. Onlar Rusiya vətəndaşlığından imtina etməlidirlər.

**Feyk №6 "RF-də XHƏ zonasından olan uşaqlar üçün təkrar tərbiyə düşərgələri fəaliyyət göstərir. Orada uşaqlar üçün hərbi hazırlıq təşkil olunub".**

Rusiyada təkrar tərbiyə düşərgələri yoxdur, o cümlədən XHƏ zonasından olan uşaqlar üçün də.

Uşaqların sağlamlıq mərkəzləri və düşərgələrdə istirahət forması ölkədə geniş yayılıb və artıq 100 ildir ki, inkşaf edir. Bu vaxt ərzində geniş infrastruktur yaradılmışdır. Qanunauyğundur ki, bu istirahət növü ilə XHƏ zonalarından uşaqlar da əhatə olunub.

Bir qayda olaraq, lager növbələrinin proqramı təkcə rekreasiya və sağmalığı deyil, həm də təhsil, inkişaf etdirici tədbirləri də nəzərdə tutur. 2022-ilin noyabrında müvəkkilin Çeçen Respublikası başçısının təşəbbüsü ilə qanunla münaqişədə olan yeniyetmələr üçün yeni formatlı lager növbəsi ilk dəfə keçirilmişdir. Növbənin məzmunu – idman-vətənpərvərlik. Format hüquq-mühafizə orqanlarında profilaktik qeydiyyatda olan yekinlik yaşına çatmamış gənclərin sosiallaşmasına yönəlib. RF-in 15 regionundan 192 nəfər onun iştirakçısı olmuşdur. Onların arasında DXR-dən 30 və LXR-dən 15 yeniyetmə iştirak edirdi – onların hamısı öz valideynlərinin razılığı ilə gəlmişdi. Ailələr rusiyayönümlü mövqe tutur, öz uşaqlarının vətənpərvərlik ruhunda tərbiyə olunmasında maraqlıdır.

2022-ci ilin avqust ayından başlayaraq Müvəkkilin təşəbbüsü ilə XHƏ zonalarından olan yeniyetmələr üçün "Birigün" reabilitasiya növbələri təşkil olunur. İlk əvvəl onun iştirakçıları DXR-dən uşaqlar olmuşdur, daha sonra LXR, Zaporojye və Xerson, 2023-cü ildə isə Belqorod, Bryansk və Kursk vilayətlərindən, eləcə də digər reionlarından da içtirakçılar qatılmışdı. "Birigün" növbəsinin formatı yaşadıqların yaşadıqları stresdən sonra bərpa olunmasına, yeni şəraitə uyğunlaşmasına, eləcə də öz gələcəyiin qurulması üçün imkanların tapılmasına istiqamətləndirilmişdi. İstirahətdən sonra uşaqlar evə doğmalarının yanına qayıdırlar. Daha ətraflı – ""Birigün" növbələri" bölümündə.

**Feyk №7 "Beynəlxalq cinayət məhkəməsinin orderi ailələrin qovuşması üzrə Rusiyanın tədbirlərini aktivləşdirib".**

Bu tezis gerçək reallığa uyğun deyil. Rusiya Prezidenti Vladimir Putin və RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belova münasibətində Beynəlxalq cinayət məhkəməsinin (BCM) orderindən əvvəl də uşaq ombudsmeni aparatı ailələrin qovuşması məsələsi ilə məşğul olub.

BCM orderi, əksinə, dezinformasiya axınını ancaq gücləndirdi və lazımsız maneələr yaradan gətginliyə səbəb oldu ki, bu da birmənalı şəkildə uşaqların və ailələrin marağında deyil. Baxmayaraq ki, uşaq ombudsmeni aparatı BCM-nin orderindən əvvəl uşaqların hüquqlarının müdafiəsi üzrə işi aparıb, hazırda aparır və gələcəkdə də aparacaq, öz uşaqlarına həqiqətən də qovuşmaq istəyən valideyn və qohumlar müvəkkil və rusiya hakimiyyətinə müraciət etməyə qorxur.

Hazıra qədər RF Prezidenti yanında uşaqların hüquqları üzrə Müvəkkilə məlum deyil ki, BCM-nin ittihamı konkret nədən ibarətdir və nəyə əsaslanır. Uşaq ombudsmeni və onun aparatının ünvanına BCM-nin nümayəndələri müraciət etməyib, hər hansı sənədlər daxil olmayıb və istənilməyib.

BCM-in rəsmi saytında yer alan rəsmi açıqlamada istifadə olunan "unlawful deportation of population (children)" ifadəsi çaşqınlıq yaradır.

Rusiya Federasiyası BCM-nin yurisdiksiyasını qəbul etmir, onun nümayəndələri isə ölkəmizdə axtarışa verilib.

Müvəkkil əvvəlki rejimdə işləməyə davam edir.

Ofis tərəfindən hazırlanmışdır
prezidentin komissarının
Uşaq Hüquqları üçün
Rusiya Federasiyasında

obr@deti.gov.ru

deti.gov.ru

t.me/malvovabelova

vk.com/malvovabelova